# Oxuculara göstərilən xidmət yüksək səviyyədədir



Azərbaycan Respublikası Prezidentinin mədəniyyət və turizm sahələrinin inkişafı ilə bağlı son illər qəbul etdiyi çoxsaylı fərman və sərəncamları əldə rəhbər tutaraq Azərbaycan dövlətinin mədəniyyət və turizm siyasətinin ardıcıl surətdə həyata keçirilməsinin təmin olunması üçün bütün sahələrdə — incəsənət, mədəni irsin qorunması, kinematoqrafiya, nəşriyyat işi, elm-təhsil, turizm, beynəlxalq əlaqələr, mədəniyyət və turizm obyektlərinin tikintisi, yenidən qurulması sahəsində konkret tədbirlər görülüb, bir çox uğurlu nəticələrə imza atılıb. Bu baxımdan kitabxana-informasiya sahəsində də müxtəlif layihələr həyata keçirilib. Kitabxana fondlarının zənginləşdirilməsi, vahid informasiya sahəsinə daxil olan MKS-lərin veb-saytlarının, elektron kataloq və elektron kitabxanaların təşkili işi davam etdirilib, kitabxanaların beynəlxalq əlaqələri daha da genişləndirilib. Bütün bunların nəticəsidir ki, mədəniyyət işçiləri dövlətimizin diqqət və qayğısını həmişə öz üzərində hiss etməkdədir.

Səbail rayon MKS-nin direktoru Nüşabə Ələkbərova ilə söhbət edərkən o, bildirdi ki, Səbail rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi (MKS) 2011-ci ildə Səbail rayonunda kitabxanaların bazasında yaradılmışdır. Hazırda bu qurum özündə mərkəzi kitabxana və 6 kitabxana filialını birləşdirir.

MKS-nin tarixindən söhbət açan Nüşabə xanım onu da vurğuladı ki, Səbail rayon MKS-nin Mərkəzi Kitabxanası Bakı Xalq Maarif Şöbəsinin nəzdində 1920-ci ildən fəaliyyət göstərən kitabxana kollektorunun bazasında yaradılmışdır. 1950-ci ildə səyyar xidmətlə yanaşı, abonent vasitəsilə də oxuculara xidmət göstərilmişdir. Onu da qeyd etmək lazımdır ki, respublikada ilk dəfə "açıq rəf" üsulu 1960-cı ildə bu kitabxanada tətbiq edilmişdir.

2009-cu ilin fevral ayında kitabxanada informasiya mərkəzi istifadəyə verilmişdir. Onu da qeyd etmək lazımdır ki, Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin keçirdiyi bütün mədəni-kütləvi tədbirlərdə MKS çox yaxından iştirak edir. Çox fərəhləndirici haldır ki, 2009-cu ildən başlayaraq keçirilən "Kitaba dost ol, ən fəal oxucu ol!" şeir müsabiqəsində iştirak etmiş və bu müsabiqədə dəfələrlə qalib olmuşuq.

Kitabxana bir çox təşkilatlarla da əməkdaşlıq edir.

Kitabxananın kitab fondu 200 minə yaxın, o cümlədən oxucuların sayı 200 min nəfərdir. Səbail rayon MKS KİV-lərlə, M.F.Axundov adına Milli Kitabxana ilə sıx əlaqəli şəkildə işləyir.

Müasir dövrdə kitabxanaçıların işinin effektivliyi ədəbiyyatın geniş təbliğ olunma formalarından çox asılıdır. Ona görə də kitabxanaçıların bilik dairəsi çoxcəhətli və geniş olmalıdır. Geniş informasiya ilə əhatə olunmuş oxucunu qane etmək üçün kitabxanaçı yüksək mədəniyyətə və biliyə malik olmalıdır ki, onun apardığı söhbətlər, şifahi tövsiyə etmək qabiliyyəti, kitab icmalı keçirmək, biblioqrafik məlumat vermək bacarığı inam doğursun.

Bu baxımdan Səbail rayon MKS-nin kitabxanaçıları böyük təcrübəyə malikdir. Kitabxananın işçiləri üçün ölkəmizdə və dünyada baş verən hadisələr haqqında icmallar təşkil olunur. Eyni zamanda kitabxanaya yeni daxil olan ədəbiyyatın biblioqrafik icmallarının keçirilməsi də artıq ənənə halını almışdır. Onu da qeyd etmək lazımdır ki, MKS-də 6 şöbə fəaliyyət göstərir. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" nın icrası ilə əlaqədar 2013-cü ildə Mədəniyyət və Turizm Nazirliyi ilə Belçikanın "ACMİS group" şirkətinin Azərbaycandakı rəsmi nümayəndəsi olan "Ultra" şirkətinin birgə əməkdaşlığı sayəsində Azərbaycanda vahid elektron kitabxana - informasiya sisteminin yaradılması həyata keçirilib. Mərkəzi kitabxana "ALİSA" Avtomatlaşdırılmış Proqramın tətbiqi üçün nəzərdə tutulmuş 3 pilot kitabxanalardan biridir.

Fərəhlə qeyd etməliyik ki, görülən işlərin nəticəsi olaraq 2013-cü ildə Səbail rayon MKS-nin Mərkəzi Kitabxanası "İlin Mərkəzi Kitabxanası" nominasiyası üzrə "İlin kitabxanası-2013" baxış müsabiqəsinin qalibi seçilmiş, Mədəniyyət və Turizm Nazirliyinin Fəxri fərmanına və mükafata layiq görülmüşdür.

MKS-nin maddi-texniki bazasının möhkəmləndirilməsi və oxuculara göstərilən kitab xidmətinin səviyyəsinin yüksəldilməsi, fondların lazımi ədəbiyyatla zənginləşdirilməsi, kompüter texnologiyalarından səmərəli istifadə edilməsi, kitabxanalararası əlaqələrin genişləndirilməsi, keçirilən tədbirlərin keyfiyyət baxımından daha da yaxşılaşdırılmasına xüsusi önəm verilir. Eyni zamanda mütəmadi olaraq kadrlarla iş aparılır – onların ixtisaslarının təkmilləşdirilməsi, peşə, həm də siyasi sahədə iş aparılır. MKS-də mədəni-kütləvi tədbirlərin, seminarların təşkilində də kitabxana təcrübə əldə etmişdir. Sistemdə "Gənclərin mütaliə marağının artırılmasında kitabxanaların rolu", "İnformasiya resurslarının, elektron məlumat bazalarının yaradılması və onlardan istifadə" , "Oxucuların informasiya tələblərinin ödənilməsində İKT-lərin rolu" və sair mövzularda seminarlar, "dəyirmi masa"lar təşkil olunmuşdur.

Kitabın kütlələr arasında geniş təbliğ olunmasında və insanların siyasi, elmi və mədəni dünyagörüşünün formalaşmasında və inkişaf etdirilməsində, oxucuların kitabxanaya cəlb olunmasında kütləvi tədbirlərin böyük əhəmiyyəti vardır. Ona görə də burada mütəmadi olaraq söhbətlər, məruzələr, kitab sərgiləri, biblioqrafik icmallar, ədəbi-bədii gecələr, "dəyirmi masa"lar, elm, mədəniyyət və incəsənət xadimləri ilə görüşlər böyük əhəmiyyət kəsb edir.

Bu və ya digər mütərəqqi təbliğat formalarının həyata keçirilməsinin nəticəsidir ki, kitabxana sistemi dəfələrlə Bakı Şəhər Mədəniyyət və Turizm İdarəsinin təşkil etdiyi qabaqcıl kitabxana və kitabxana işçilərinin dəyərləndirilməsi, müxtəlif nominasiyalar üzrə qalibi olmuşdur.

Bəli, Səbail Rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi bu gün, əsl mənada intibah dövrünü yaşayır.

**Zabit CAVADOV,**
**"Respublika".**